# GÜNAHSIZ QATİL

*(hekayə)*



***Baba BABAYEV***

Kəndə səs yayıldı ki, Adaş yoxa çıxıb.

Ensiz və çox uzun qamışlı gölün kənarında yerləşən, çox da böyük olmayan əlli-altmış evdən ibarət kəndin əhalisi sayca çox deyildi. Bu gölün qəribə quruluşu vardı. Kür çayı daşıb dəlisovluq edərək məcrasından çıxanda, talada yerləşən meşəlik suyun altında qalmış, böyük bir ərazini sanki qolları arasına almış, dövrə vuraraq ay parası şəklində Kürün başqa səmtində lövbər salıb dayanmışdı. Təpəliyə görə çaya yaxınlaşıb qovuşa bilməmişdi. Burada əsrarəngiz, maraqlı bir təbii ərazi yaranmışdı. Kür çayının iki yönündən axıb gəldiyi üçün, bir ada yaranmışdı. Ada torpağının münbitliyinə görə çox məhsuldar idi. Gölün o üzündəki kənd bizimki ilə müqayisə edilməzdi - hər tərəfi su idi. Kəndin quruya bir çıxış yolu vardı. İki kəndin sakinləri bir-birinə qız verib, qız almış, qohumlaşmışdılar. Bu səbəbdən xeyir-şərləri də bir idi. Hətta mənim xalam da o kəndə qaçırılaraq gəlin aparılmışdı. Qohum-qonşuluqda olan gözəl-göyçək qızlar döşləri ditdəməmiş, əndamları bərkiməmiş, gözlərinin od-alov saçdığı vaxtlarda qonşu kəndin gədələrinə qoşulub gedirdilər. Səbəbsə o kənddə yeddillik məktəbin olmamasıydı. Qızlı-oğlanlı ibtidai sinfi orada qurtaranlar, beşincidən yeddinci sinfə qədər bizim məktəbdə oxuyurdular. Sevgi deyilən çağırılmamış bir qonağın və Allahın da hər bəndəsinə nəsib etmədiyi bu bəxtəvər xoşbəxtliyin çılğın vaxtları bu yaşlarda baş verirdi. İlk vurğunluq elə hiss, duyğudur ki, bu dəliliyin qarşısını almaqda Tanrı da aciz qalır. Bu yaşın ürəyə saldığı odun-alovun qarşısını ancaq ölüm ala bilərdi. Əksi də ki, bir-birinə qovuşmaqdı. Qarşıda nə gimnaziya istəyi vardı, nə də Moskvada, Sankt-Peterburqda ali təhsil almaq istəyi. Həyatın, gələcəyin gözəlliyini bu gənclər sevgilərinə, vüsala çatmaqda görürdülər. Bizim bu yeddillik məktəbə beş kəndin uşaqları gəlirdi. Məktəbdəsə bir-birini sevənlərin eşq macərası dildən-dilə düşür, Kür boyu obalarda - beş para kənddə dil-dil, ev-ev gəzirdi.

Bizim yaşadığımız, guya ki, "paytaxt kəndin" - məktəb olan kəndin uşaqları daha ciddi, tələbkar, Şamaxıya, Tiflisə təhsil dalınca gedənlər olurdu. Girdab içində, nadan həyat yaşayan adamlar savadlanıb öz hüquqlarını qorumaq, kəndxudadan, hampadan müdafiə olmaq üçün min bir əzab-əziyyətə qatlaşaraq təhsil dalınca ən yaxını Göyçay qəzasına gedirdilər. Bax bu oxumaq şövqü ilə də bizim kəndin oğlanları istəsələr də, istəməsələr də dərdindən dəli-divanə olduqları qızlarla evlənmir, ən qısası, əhd-peyman bağlayıb təhsil dalınca gedirdilər.

Yeddinci sinifdə oxuyurdum. Bir gün dərsdən gələndə nənəmi həyətimizdəki iri, qoşa tut ağacının altındakı yerdən çox da hündür olmayan taxçanın üstündə oturub ağlayan gördüm. O, məni gördü. Evin tinində durub bir az gözlədim. Nənəm Vahidim, İsam deyib ağlayırdı. Onun belə yanıqlı-yanıqlı ağlamağına məəttəl qaldım. Çünki Vahid əmim qardaşların böyüyü idi və Mingəçevir şəhərində yaşayırdı. İsa əmim isə atamdan kiçik qardaş idi və bir yerdə yaşayırdıq. İsa əmim hələ evlənməmişdi. Bəs nənəm niyə Vahidim, İsam deyib ağlayırdı? Bunları başa düşmürdüm.

Evin tinindən; "nənə, ay nənə", - deyə səsləndim ki, zavallı qadın özünü üzməsin. Səsimi eşidib baş dəsmalının ucu ilə gözlərinin yaşını silə-silə geri çevrilib, "sənə qurban olum, ay oğul, ölümüm qabağında", - deyib qollarını mənə tərəf açdı. Bambazıdan tikilmiş məktəb çantamı kənara qoyub nənəmin üz-gözündən tamarzı-tamarzı öpüb xeyli qucaqlaşma qaldıq.

- Can nənə, axı əmilərimin ikisi də sağdır. Niyə onları ağlayırdın? Sağ olan adamı ağlayarlar?

– Ağrın ürəyimə, ay oğul, mən Sibirə sürgün olunan Vahidlə İsanı ağlayıram. Burdakılar ad yiyəsidirlər. O Vahidlə İsa babanın - Baba kişinin qardaşları idilər. İkisi də cavan, ikisi də subay idi. Çar Rusiyasının jandarmları onları tutub apardılar. Anaları ölmüş zavallıların, mənim gənc qayınlarımın Sibirdə ölmək alın yazılarıymış. Uzun illər onlardan xəbər çıxmadığına görə Baba kişi övladlarına Vahid və İsa adını qoydu. Ki, izləri itməsin, nəsildən-nəslə ötürülsün. Hər ikisi - İsa dünyadan nakam getdi, Vahidsə Rusiyada öldü.

– Nənə, onları niyə tutdular? Sibirə niyə göndərdilər? Çox istəyirəm, mənə danış, görüm babamın gənc qardaşları nə günah işlədiblər ki, Sibirə - gedər-gəlməzə göndəriblər.

– Ay oğul, çox istiqanlı, böyüyün-kiçiyin yerini bilən, namuslu və qeyrətli, ən çətin vaxtlarında babanın yanında olan oğullar idilər. Beş para kənddə seçilən cahillər idi. Kəndin xeyir-şərində fərqlənən, evin yox, elin namus-qeyrətini çəkənlərdi. İstər at çapmaqda, ov ovlamaqda, istərsə də, dirədöymə oynamaqda, qılınc oynatmaqda onların tayı bərabəri yoxuydu.

İsa da tay-tuşları kimi kəndimizin gözəl-göyçək bir qızı - Dilbərin dəli-divanəsiydi. Bu qızı görən qadınların da ona tamahı düşərdi. İsa Dilbərə ürəyini açıb onu sevdiyini, ömrünün sonunacan gözlərinin üstündə saxlayacağını demişdi. Eh, o qızın mən də dəlisiydim. İlk dəfə görəndə ani ürəyimdən keçmişdi ki, ya rəbbi, nolardı bu qız ya Vahidə, ya da İsaya qismət olaydı. Ağzım dualıymış, bala, bu məqamda Tanrının qapısı açıq olub səsimi eşidib. Sən demə, İsa dörd-beş ay imiş Dilbəri gözaltı edib, xalasından elçilik ismarışını göndəribmiş. İsaya kim vurulmazdı - boy-buxunu, zil-qara, sıx saçları, qonur, can alan gözləri, atın belinə qırğı kimi sıçraması, quşu gözündən vurması - elə bil Allah onu qüdrətindən yaratmışdı. Nə isə...

Dilbərlə İsanın məhəbbət macərası kəndbəkənd dildən-dilə düşdü. İstəyən də, istəməyən də hər kəs bu gənc, gözəl cütlüklərə xeyirli dualar edirdi. Onların məhəbbəti beş para kənddə gerçək dastana dönmüşdü. Qara hörüklü ilə İsanın divanəlik əhvalatı dillər əzbəriydi.

Bir gün axşamüstü, bax, həyətimizdəki bu böyük qoşa ağ tut ağaclarının altında oturub atadan qalma cəhrəmlə yun əyirirdim. İsanın adı yazılmış yun xalça toxuyurdum. Axı yaxın vaxtlarda, el adətincə, toy edib məclis qurmalıydıq. Dilbərin nişan üzüyünü, ipək-atlas nişan payını və şirnisini özüm hazırlayıb aparmışdım. Babam nişan tədarükünü Tiflisdən etmişdi. İlahi, qız necə gözəlləşmişdi, işıq saçırdı. Çatma qaşları, bəxtəvər, can alan süzgün gözləri, hörüklərinin birini gərdəninə, birini də şirmayi sinəsində yenicə çırt vurmuş, tumurcuqlaşmış kimi görünən döşlərinin birinin üstünə atmışdı. Tanrının istədiyi yox ey, vurulduğu, dəlisi olduğu gözələ nə vermək istəmişdisə, bütün bəxşişlərini bu sevdiyi bəndəsindən əsirgəməmişdi.

Nişan hazırlığını ürəklə, istəklə, işləri yoluna qoyub yoluna, həzzlə, ləzzət alaraq görürdük. Bir də o gözəlliyin sahibinə könülsüz iş görmək Allaha da, bəndəyə də xoş getməzdi. Buna Tanrının da acığı tutardı.

Eh, ay bala, bilməzdim ki, bu gözəllik onun başına belə müsibət açacaq. Qız nazara gəldi.

Cəhrəyə çox şövqlə girişmişdim. Neçə saat idi ip əyirirdim. İyin ipi qurtaranda gözlərimə qaranlıq çökdü. Elə bildim mənə nəsə oldu. Başımı yuxarı qaldıranda göyün üzünün tutulduğunu, qapqara, lopa-lopa, yoxsa lay-lay buludların oynaya-oynaya axdığını gördüm. Yaz ağzı olmasına baxmayaraq bizim bu yerlərdə belə qorxunc, göy tutulması gec-gec olurdu. Göy elə vahiməli guruldadı ki, elə bil qəflətən qulağıma zərblə sillə vuruldu, gözlərimdən od çıxdı. İldırım tez-tez çaxdı. Dəhşətli gurultudan sonra şıdırğı leysan başladı.

Hava zil qaranlıqdı. Təpədən dırnağa qədər islanmış ev kişiləri bir anın içində məhlədə oldular. Vahid "ay gəlin bacı, qorxmadın ki?", deyib mənə baxdı və gülə-gülə heyrətimdən donub qaldığım, nələrinsə baş verdiyini duymadığım bu məqamda cəhrəni həsirlə döşənmiş seyvanlı evə apardı.

İsa suyun içində bikef halda atın yüyənini arçın ağacına keçirib "nə təhərsən, qorxmadın ki, ay gəlin bacı?", - deyib yüyürərək mənə səmt gəldi. Ərim hər iki atı tövləyə apardı ki, leysanabənzər yağan aran yağışı onları xəstələndirməsin. Çünki atlar tərli idilər. Evə tez çatmaqdan ötrü sahibləri onları çox çapmışdı. Belə vaxtlarda atların tərləri alınmalı, qurudulmalı, yüyənindən tutub yedəyində xeyli gəzdirməlisən. Tərəkəmə olduğumuz üçün bütün bunları, qadın da olsam, bilirdim. Atam Savalan bəy həmişə belə edərdi.

Mal-qara yerbəyer edilənə qədər İsa iri kötük girdinini gətirib ocağa qoydu. Fənəri yandırdım. Axşam düşməsə də, qaranlıqdı. Qardaşlar da, mən də üşüyürdük. İsa, "ay bacı, nəsə yaman darıxıram, ürəyim elə çırpınır ki, elə bil bu saat yerindən çıxacaq. Bilmirəm mənə nə olub?" Baba kişi qardaşlarına da, mənə də toxtaqlıq verib, "Allaha dua edin, Allahu-Əkbər deyin, heç nə olmaz", - deyib hər üçümüzə təskinlik verdi. Ocaqdakı çaydandan hər üçünə çay süzdüm.

Gecədən xeyli keçmişdi. İtlərin ulaşmasına oyandım. A kişi, dursana, bu bədxəbərlər niyə ulayır belə? Qonşu itlər də səs-səsə verib əcayib, zəhlətökən səslər çıxararaq ulaşırdılar. Vahimədən yata bilmirəm, dur, bu itə açıqlan, səsini kəssin. İtlərin ulaşması kəsildikdən sonra şirin bir yuxuya getdim.

Dan yeri qızarmamış, qonum-qonşu, kənd-kəsək yuxudan durmamış itin kiminsə üstünə acıqlı cumduğunu, bərkdən boğuq səslə hürdüyünü eşidib qonşu otaqda yatan qayınlarım da oyandılar. Vahidin səsi gəldi. İtin üstünə acıqlanıb vaxtsız gəlmiş, çağrılmamış qonağı tut ağacının altındakı taxçanın üstündə otuzdurdu. Mən evin kiçik, dəmir çərçivəli pəncərəsindən baxanda vaxtsız qonağın Dilbərin atası - Musa kişini gördüm. Əlim üzümdə qaldı. Sən özün xeyirə yaz, ay Allah, görəsən nə olub? Qardaşların üçü də Musanın yanında dayanmışdı. Kişi nəsə qayğılı-qayğılı danışırdı. Ürəyim tab gətirmədi. Çölə çıxdım. Çırtma vursaydın, Musanın qanı yerə düşməzdi. Kişi ayaq üstə ölmüşdü. Üzündən-gözündən qan-qan deyirdi. Onlara yaxınlaşanda, Musa, camaat yuxudan durmamış gedim, - deyib qaratikandan olan alçaq çəpərin üstündən tullanıb bir göz qırpımında yoxa çıxdı. Ərim nəsə danışır, qardaşlar susurdu. Mən onların çənəsi altda dayananda: qardaşlar, bu işi vələduznalıq üstdə Kürün o biri tayından qovulub bizim kənddə özünə sığınacaq tapan Adaş edər. Onu oradan namus üstündə qovublar. Bir qardaşını öldürüb, arvadını da aparıblar. Qana-qan edilsə də, Adaş gecəykən kəndlərindən olan olmazını bir torbaya yığıb Şirvan tərəfə qaçıb. Gözlərindən oğraşdıq yağır, namaz vaxtı ağsaqqallara deyirdim ki, bu gədə dinc durmayacaq, arvad-qızı ondan qorumaq lazımdır.

- A kişi, nə olub? Dilbərin başında nə qəza var?

Kişi üzümə baxmağa utanırmış kimi:

- İntizar xanım, gəlinimiz axşamdan yoxa çıxıb, nə ölüsündən, nə də dirisindən xəbər yoxdur. Musa xəbərə gəlmişdi.

Qardaşların heç biri səhər yeməyindən bir tikə də götürmədi.

- Ay arvad, - kişi xırıltılı, güclə eşiləcək səslə:

- Musanın arvadıynan görüş, bizə təcili, dürüst məlumat gətir, - dedi. Və sonra üzünü qardaşlarına çevirib, bu beş para kənddə bizə sataşan olmaz, - deyə mızıldandı. Qeyrətimiz də, namusumuz da obada hər kəsə bəllidir. Bu evin nişanlı gəlinini heç kəs ürək edib qaçıra bilməz. İntizar xanım bir ipucu xəbər gətirsə, fikirləşib tədbir görərik.

Heç bir tüpürüm qurumamış qız evindən xəbər gətirib gəldim, oğul, - deyə nənəm mənə müraciət edib söhbətin mabədini danışdı. Qardaşlara xəbər verdim ki, Dilarə Kür çayına üç-dörd tay-tuşu ilə su gətirməyə gedibmiş. Kəndin girəcəyində hava qaralıb-bozarıb, göyün üzünü qara buludlar alıb yağış yağanda qızlar ayrılırlar, o da axmazın yaxası ilə çiynində güyüm, əlində səhəngi evlərinə səmt gedib. Allahverdi kişi bu xəbəri eşidib, gedib Musaya deyib ki, mən adadan gələndə qızı evə gedən gördüm. Atı bərk çapsam da, onun yanından keçəndə yüyəni yığışdırıb səngidim və qızı tanıdım. Adaş da məndən xeyli geridə gəlirdi. Axmazın döşündə bəyliyin kiçik tut meşəsi vardı. Hər şey məlum idi. Qız buradan keçməliydi. Adaş da meşənin içindəki cığırın kənarında gizlənərək marıxda durub onu gözləyib.

Qardaşlarla Allahverdi qohum olduqlarından onun sözlərinə inanırdılar. Vahid atı minərək tez Allahverdinin dalınca getdi. Az keçməmiş onların hər ikisi həyətdə idi. Allahverdi əhvalatı olduğu kimi, dəqiqliyi ilə qardaşlara danışır.

Xoruzların gecə banından sonra Vahidlə İsa çal-çəpəri olmayan, axmazın üstündə, kəndin ən ucqar qırağında tənha yaşayan Adaşın komasının qapısını döydülər.

*(Davamı var)*